# Mülki Cəmiyyət

## Yaxşı təhlükəsizlik sektoru idarəçiliyində rollar və məsuliyyətlər

### Bu buraxılışla bağlı

**TSİ-ı Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi(TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ) üzrə mövzulara qısa girişlər verir. Bu cür buraxılışlar indiki dövrdə gedən debatları ümumiləşdirir, əsas terminləri izah edir və geniş təcrübəyə əsaslanaraq əsas gərginlik doğuran məsələləri üzə çıxarır. TSİ Köməkçi materialları yaxşı idarəçilik və ya islahat üçün spesifik modelləri,siyasi proqramları və ya təklifləri təbliğ etmir,əksinə hər bir bu cür mövzular üzrə oxucuların biliklərinin artması üçün, onları əlavə vəsaitlərlə təmin edir. TSİ Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və Təhlükəsizlik sektoru islahatı (TSİ) üzrə mövcud yanaşmaları anlamaq və tənqidi qiymətləndirmə aparmaq istəyən təhlükəsizlik sektoru idarəçiliyi və islahatı üzrə çalışan maraqlı tərəflər üçün nəzərdə tutulan vəsaitdir.**

DCAF Geneva Centre for Security Sector Governance

## Bu TSİ-ı Köməkçi materialları ilə bağlı

Bu Köməkçi materialları, təhlükəsizlik sektorunda hesabatlılıq və effektivliyin yaxşılaşdırılmasında mülki cəmiyyət hansı rolu oynaya biləcəyi haqqındadır. Mülki cəmiyyətin bu işlərə cəlb olunması, təhlükəsizliklə bağlı qərar qəbul edilmə proseslərində demokratik yanaşmaları gücləndirən iştirak mədəniyyətinin bir hissəsidir. Geniş dairəli perspektivlər, maraqlar, məlumat və alternativ ideyalar irəli sürməklə mülki cəmiyyət öz təcrübəsi və müstəqil maraqları ilə hökümət siyasətini balanslaşdırır. Lakin, mülki cəmiyyət fəallığı heç də həmişə demokratik deyil və əhalinin maraqları və tələblərini təmsil etmir və avtomatik olaraq effektiv nəzarətə aparmır.

## Bu TSİ Köməkçi materialları aşağıdakı suallara cavab verir:


- Mülki cəmiyyət nədr? .................................................
- Mülki cəmiyyət təhlükəsizlik sektoru idarəçiliyini necə yaxşılaşdıra bilər? ....................................
- Mülki cəmiyyət ilə iş dövlət təhlükəsizliyi və ədalət təsisatlarına necə
- kömək edə bilr?...................................................
- Mülki cəmiyyət təhlükəni nə zaman daha da təhlükəli edə bilər? .............................................
- Mülki cəmiyyət hansı problemlərlə üzləşir? .........
- Əlavə oxu ...........................................................


## Mülki cəmiyyət nədir?

Mülki cəmiyyət dedikdə, **paylaşan maraqlar və ya ictimai maraq kəsb edən baxış ətrafında vətəndaşların formalaşdırdığı bütün fərqli qruplar** nəzərdə tutulur: məsələn, xeyriyyəçilik, xeyriyyəçi və ya müdafiə təşkilatları,klublar,ittifaqlar, əmək birlikləri, peşəkar təşkilatlar,biznes təşkilatları,icma və ya yaşayış yerləri qrupları,yerli və ya etnik maraq qrupları,dini-əsaslı təşkilatlar,beyin mərkəzləri,QHT-lər və müstəqil fondlar (bax şəkil1) bu qəbildəndir.

Demokratik ölkələrdə mülki cəmiyyətlərin üç əsas xarakteristikaları vardır:

**Mülki cəmiyyət ictimaiyyətin marağı üçün çalışır**: mülki cəmiyyət maraq daşıyan məsələlər üzrə cəmiyyətə və ictimai həyata rəy bildirir.Mülki cəmiyyətin sosial maraqlar, daxili siyasət və aparılan siyasi proqramlar üzrə rəyləri rəngarəngdir və bəzən ziddiyyətli və ya münaqişəlidir,lakin onların hamısı sosial vəziyyətin yaxşılaşmasına xidmət edir. Müllki cəmiyyət siyasi partiyalardan fərqli olaraq, ictimai maraqlara hökümət qurmaqla təsir etmək məqsədi güdmür.

**Mülki cəmiyyət sərbəst şəkildə təşkil olunur:** Mülki cəmiyyət qanunla müəyyən edilən rəsmi qruplar şəklində formalaşa bilər(məsələn, assosiasiyalar,təşkilatlar və fondlar kimi) və ya insanlar arasında sərbəst münasibətlərlə qeyri-rəsmi şəkildə təşkil oluna bilər(məsələn, sosial klublar,kampaniyalar,müntəzəm görüşlər,platformalar və şəbəkələr vasitəsilə). Lakin, mülki cəmiyyətin necə təşkil olmasından asılı olmayaraq, mülki cəmiyyət qruplarının iştirakı və ya üzvlüyü hər zaman könüllülük əsasında və hökümət nəzarətindən kənarda olur.

**Mülki cəmiyyətin gəlir qazanmaq məqsədi yoxdur**. Mülki cəmiyyətin fəaliyyət göstərməsi üçün çox zaman maliyyə tələb olunsa da və qruplar bu məqsədlər üçün çox zaman maliyyə toplasalar da (o cümlədən hökümət mənbələrindən ), onların heç bir zaman gəlir əldə etmək məqsədləri olmur. Mülki cəmiyyət bəzən iqtisadi məsələləri müdafiə edir, lakin heç bir zaman gəlir gətirən biznes fəaliyyətinə qoşulmur.




Şəkil 1. Mülki cəmiyyət çox sayda qruplar və subyektlərdən təşkil olunur

Mülki cəmiyyət haqqında təsəvvür əldə etməyin başqa yolu onun hansı sahələrdə iştirak edib-etmədiyini görməkdir. .Mülki cəmiyyət dövlət və ya hökümət ,kommesiya və ya biznez işlərini və ya geniş ictimaiyyətin özəl həyatını əhatə etməyən bütün növ sosial fəaliyyətdir(Bax Şəkil2). Mülki cəmiyyət paylaşan dəyərlər və ya maraqlar üzündən yaradılır və bu o deməkdir ki, onlar hədəf aldıqları əhalinin fikirlərini çox zaman hamıdan daha yaxşı başa düşürlər. Əgər mülki cəmiyyət hər hansı bir xüsusi məsələ üzərində dəyişiklik gündəmi yaradırsa, o, görmək istədiyi dəyişikliyi lobbiçilik etməklə, ictimai müdafiə etməklə höküməti,biznes sektorunu və ya geniş ictimaiyyəti inandırmalıdır. Yaxşı təşkil olunmuş mülki cəmiyyət, cəmiyyətə və təhlükəsizliyə uzun müddətli təsiri ilə demokratik təmsilçilik üçün effektiv kanal ola bilər.




Şəkil2. Mülki cəmiyyət dövlət, əhali və bazar arasında yerləşir.

## Media və mülki cəmiyyət

Azad və müstəqil media bəzən mülki cəmiyyətin tərkib hissəsi sayılır, çünki onlar ictimaiyyətin maraqlarını dəstəkləməkdə oxşar rollar oynayır və təhlükəsizlik sektoru daxil olmaqla hökümət üzərində nəzarət təmin edir. Lakin, media gəlirli əsasda çalışa bilər və dövlət tərəfindən maliyyələşdirilə bilər və ya hökümət tərəfindən idarə edilən ola bilər və bu səbəbdən bir qisim adamlar peşəkar jurnalistləri və media kanallarını mülki cəmiyyətin bir hissəsi kimi qəbul etmirlər.

Medianın yaxşı TSİd-də rolu haqqında daha çox məlumat almaq üçün TSİ Köməkçi materiallarının Media hissəsinə isnad edin

## Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ).

Yaxşı TSİd-i, yaxşı idarəçiliyin prinsiplərinin, dövlət tərəfindən təhlükəsizliyin təmin edilməsi,təhlükəsizlik idarəetməsi və onun üzərində nəzarətə necə tətbiq edilməsini göstərir.

Yaxşı TSİd-nin prinsipləri hesabatlılıq, şəffaflıq, qanun aliliyi,iştirakçılıq, vaxtında problemlərə reaksiya verilməsi,effektivlik və məhsuldarlıqdan ibarətdir.

Təhlükəsizlik sektoru təkcə təhlükəsizlik təminatçılarından ibarət deyil, buraya həm ölkə səviyyəsində və həm də yerli səviyyədə təhlükəsizlik idarəetməsi və nəzarəti ilə bağlı olan bütün təsisatlar və təhlükəsizlik sektoru qulluqçuları da aiddir.

Yaxşı TSİd –nin qurulması təhlükəsizlik sektoru islahatının məqsədidir. TSİ siyasi və texniki proses olub təhlükəsizliyin təmin edilməsini, idarəetməsini və onun üzərində nəzarəti mülki demokratik nəzarət,qanun aliliyi və insan hüquqları çərçivəsində daha da effektiv və daha da hesabatlı etməklə dövlətin və əhalinin təhlükəsizliyini yaxşılaşdırmaqdır. TSİ-ı sadəcə dövlət təhlükəsizliyi təminatının bir hissəsinə fokuslana bilər və ya bütöv sistemin necə işləməsinə fokuslana bilər, burada əsas məsələ effektivlik və məhsuldarlığın yaxşılaşdırılmasıdır.

Bu əsas təriflər haqqında daha ətraflı məlumat almaq üçün “Təhlükəsizlik Sektoru İdarəçiliyi” və “Təhlükəsizlik Sektoru İslahatı” üzrə TSİ **Köməkçi materiallarına** isnad edin.

## Mülki cəmiyyət təhlükəsizlik sektoru idarəçiliyini necə yaxşılaşdıra bilər?

Təhlükəsizlik məsələlərinə qoşulmuş mülki cəmiyyət, demokratik təhlükəsizlik idarəçiliyi üçün dəyərli varlıqdır, çünki o təhlükəsizliyin keyfiyyəti haqqında və onu yaxşılaşdırmaq haqqında əhalinin fərqli fikirlərini əlaqələndirən kanal yaradır.

Mülki cəmiyyət təhlükəsizlik haqqında rəy söylədiyi zaman və təhlükəsizlik sektoru ona reaksiya verdikdə yaxşı təhlükəsizlik sektoru idarəçiliyi güclənir. Bu ona görə olur ki:

- **Təhlükəsizlik sektoru bu halda ictimai fikir haqqında daha çox öyrənir**: Çünki mülki cəmiyyət ictimaiyyətin üzvlərini onlar üçün önəm daşıyan məsələlər ətrafında səfərbər edə bilir və mülki cəmiyyət dövlət təhlükəsizlik qüvvələrinin təhlükəsizlik təminatını,idarəetməsini və onlar üzərində nəzarətin real təsirlərini başa düşür və onu təhlükəsizlik sektoruna çatdıra bilir. Təhlükəsizlik sektoru mülki cəmiyyətin fikirlərinə diqqətlə qulaq asaraq,qərar vermə proseslərində iştirak edən mülki cəmiyyət nümayəndələrinin qaldırdıqları suallara cavab verərək, daha geniş təhlükəsizlik qayğılarını əhatə edən və ictimai maraqlara cavab verən sektora çevrilir.

- **Geniş ictimaiyyət təhlükəsizlik sektoru haqqında və cari təhlükəsizlik problemləri və onların həlli yolları haqqında məlumatlanır**: Mülki cəmiyyət vətəndaşlara təhlükəsizlik haqqında və təhlükəsizlik sektorunun işi haqqında detallı və hədəflənmiş məlumat verir. Mülki cəmiyyət öz seçicilərini və ya əhaliinin geniş təbəqəsini təhlükəsizlik məsələlərinin problemləri və həlli yolları haqqında məlumatlandırmaqla,yaxşı təhlükəsizlik idarəçiliyi ilə əlaqədar ictimai müzakirələri canlandırır. Narahatlıq yaradan məsələlər ictimaiyyətin diqqətinə çatdırıldığı zaman qərar vermə proseslərində,vəsaitlərdən istifadə hallarında və xidmət standardlarında daha geniş hesabatlılıq və şəffaflıq tələbləri güclənir.




Şəkil 3. Mülki cəmiyyət ictimaiyyət və təhlükəsizlik sektorunun bir-birini daha yaxşı başa düşməsinə kömək edir.

**Məlumatlılıq yaradılması**: Mülki cəmiyyət fəaliyyətlərinin bir neçə kateqoriyası yaxşı təhlükəsizlik idarəçiliyini yaxşılaşdırır: Mülki cəmiyyət,legitim rol və vəzifə, insanların daha çox maraq göstərdikləri məsələlər barədə məlumat verməklə təhlükəsizlik məsələsində kütləvi ictimai maraq yaradır. Bu çox vacibdir,çünki təhlükəsizlik problemləri bəzən təhlükəsizlik sektorunun legitim rol və vəzifələrindən doğan anlaşılmazlıqlardan irəli gəlir. Hüquqi və demokratik gözləntilər,vəzifələr və mümkün dillema haqqında məlumatlılıq yaradılması, təhlükəsizlik və ədalətin təmin edilməsində ictimai təsəvvürü artırır və təkmilləşmə üçün tələblər ortaya qoyur. Ictimai təhsil, həssaslığın artırılması və informasiya kampaniyaları məlumatlılığı artırır və əhalinin təhlükəsizlik təcrübəsini və dövlət təhlükəsizlik qüvvələrinin və ədalət sisteminin fəaliyyətinin legitimliyini gücləndirir. Eyni zamanda, müxtəlif çeşidli qadın və kişilərin, qız və oğlanların qayğılarının təhıükəsizlik sektorunda çalışanlar tərəfindən daha yaxşı başa düşülməsinə kömək etməklə, bütün bu qrupların fərqli ehtiyaclarının həll edilməsində faydalı olur..

İctimai müdafiə**:** Mülki cəmiyyət, xüsusi təhlükəsizlik problemlərinin və ya hər hansı bir xüsusi qrupun təhlükəsizlik qayğılarının həll yollarını qərar vericilərə təqdim etməklə daha yaxşı təhlükəsizlik müdafiəçisi ola bilər. Əgər ictimai müdafiəçilər təhlükəsizlik məsələlərində inandırıcı arqumentlərdən istifadə edirsə və siyasi və əməliyyat mühiti haqqında dərin təsəvvür nümayiş etdirirsə, o zaman o təhlükəsizlik məsələlərində mühüm təsirə malik ola bilər. İctimai müdafiə işlərinə şəbəkə qurma,seçicilərin aksiyası və ictimai səfərbərlik,gündəm qurma və siyasi plan,icra və monitorinq işləri daxildir. İctimai müdafiə çox zaman dialoq təşviq edir və təhlükəsizlik sektorunun qayda və praktikalarına dəyişikliklər edilməsinə hazır olan parlament,hökümət və təhlükəsizlik qüvvələrinin nümayəndələri ilə əlaqəyə girir. İctimai müdafiə, həmçinin, hədəfli kampaniyalara cəlb oluna bilər və ya regional və beynəlxalq təşkilatların və ya şəbəkələrin qaldırılan məsələ ətrafında daha geniş ictimai dəstək alınması üçün fəallaşdırma işlərinə də qoşula bilər.

**Monitorinq və ictimai nəzarət**: Mülki cəmiyyət şəffaf və ardıcıl şəkildə, sistemli olaraq xüsusi təhlükəsizlik məsələlərini və ya praktikalarını gözdən keçirərək təhlükəsizlik sektorunun işini maşahidə etmək və izləmək imkanında ola bilər. Monitorinq və nəzarət hökümətin addımlarının təsirini sənədləşdirmək və analiz etmək və onları yaxşılaşdırmaq ideyaları irəli sürmək məqsədi güdür. Bəzən bu funksya keşikçi funksiyası da adlanır,çünki mülki cəmiyyətin apardığı nəzarət və monitorinq potensial sui-istifadə və qanun pozuntusu olduqda həyəcan siqnalı verə bilir. Mülki cəmiyyət qanunlara hörmət edilib-edilməməsini və proqramlara riayət edilib-edilmədiyini və ya standardların qorunub-qorunmadığını yoxlaya bilir. Mülki cəmiyyət,hökümətin nəzarət sistemindən kənar olduğundan, onun müstəqilliyi dövlətin təhlükəsizlik sektoru üçün etibarlılıq və legitimlik yaradır və eyni zamanda sui-sitifadə və mənimsəmə halları üçün də maneələr yaradır. Təhlükəsizlik sektorunun mülki cəmiyyət tərəfindən monitorinq edilməsi TSİd-ni o zaman gücləndirir ki,təhlükəsizlik sektoru demokratik idarəçilik çərçivəsində qanun aliliyi və insan hüquqlarına hörmət edən, görünən və fəal səylərə cəlb olunsun.

**Fakt toplama,tədqiqat və analiz:** Mülki cəmiyyət təhlükəsizlik məsələlərinə qoşulduğu zaman dəqiq məlumatlara və aydın analizlərə əsaslanır. Mülki cəmiyyət,təhlükəsizlik və ədalət mövzuları üzrə özünün davamlı səyləri vasitəsilə çox zaman mütəxəssis təcrübələri və bilgisi əldə edir və bu təcrübələri siyasət qurulmasına həsr edir, icma maraqları və tələblərinin daha dərindən başa düşür,təhlükəsizlik sektorunu daha da təsirli şəkildə monitorinq edir və hökümətin məlumatlılığını və siyasət qurma proseslərini genişləndirir və tamamlayır. Mülki cəmiyyətin iştirakına açıq və həssas olan təhlükəsizlik sektoru, müki cəmiyyətin verdiyi məlumatlardan,analiz və məsləhətlərdən qazana bilər. Bu yolla, mülki cəmiyyət təhlükəsizlik idarəetməsi,nəzarəti və təminatına birbaşa təsir edə bilər və media və geniş ictimaiyyəti maraq doğuran məsələlərlə bağlı məlumatlandıra bilər.

**Xidmət təminatı**: Mülki cəmiyyətin verdyi xidmətlər bəzən dövlətin təhlükəsizlik və ədalət təminatını daha da genişləndirir və tamamlayır,məsələn, qonşuluq sayıqlığı vasitəsilə hüquq mühavizə orqanları ilə icma əməkdaşlığı edir,icma forumları vasitəsilə və ya yanğın briqadaları,xilasetmə və ya canqurtaranlar kimi könüllü fövqəladə xilasedici xidmətlər vasitəsilə təhlükəsizlik xidmətlərinə yardım edir. Bəzən mülki cəmiyyət birbaşa olaraq təhlükəsizlik təminatçıları ilə və dövlət təhlükəsizliyi və ədalət təmin edən xidmətlərlə birgə işləyir, məsələn, hüquqi məsləhət,zərərçəkənlərə dəstək, və ya tibbi və sosial xidmətlər bu qəbildən ola bilir. Mülki cəmiyyət həm də xüsusiləşmiş mövzular üzrə təlim keçmək üçün təhlükəsizlik sektoru ilə əməkdaşlıq edə bilər,məsələn, təhlükəsizlik təminatçıları və rəsmiləri üçün kimlik və ya icma məsələləri üzrə və ya təhlükəsizlik və ya ədalət məsələləri üzrə təlimlər keçirilə bilər.




Şəkil 4: Mülki cəmiyyət, təhlükəsizlik sektoru idarəçiliyini yaxşılaşdırmaq üçün hökümətin müxtəlif elementləri ilə münasibətdə fərqli strategiyalardan istifadə edir

## Mülki cəmiyyət ilə iş dövlət təhlükəsizliyi və ədalət təsisatlarına necə kömək edə bilər?

Mülki cəmiyyət təhlükəsizlik nəzarəti,idarəetməsi və təminatı ilə bağlı çox sayda məsələləri gücləndirə bilər. Mülki cəmiyyətin təhlükəsizlik sektoru idarəçiliyində iştirakı ona əsaslanır ki, hökümətlər idarə etdikləi əhali qarşısında hesabatlı və cavablayıcı ol**sunlar.** Mülki cəmiyyətlə sıx əməkdaşlıq ona gətirir ki:

- **Təhlükəsizlik və ədalət təminatçıları daha da peşəkar və effektiv ola bilir**: Effektiv ictimai nəzarət tələb edir ki, mülki cəmiyyət təhlükəsizlik sektorunun işinin bütün aspektləri ilə tanış olsun və onun fikir və təklifləri təhlükəsizlik təminatının yeni və daha yaxşı yollarını üzə çıxarmağa kömək etsin.
- **Təhlükəsizlik və ədalət təminatçıları ictimai dialoq vasitəsilə legitimlik və etibarlılıq qazanır**: Mülki cəmiyyətin işə qarışması ictimaiyyət ilə təhlükəsizlik sektoru arasında davamlı dialoq yaradır və o da inam və təsəvvür yaranmasına kömək edir.
- **Təhlükəsizlik və ədalət təminatçıları münaqişə və zorakılığın qarşısını daha yaxşı ala bilir**: mülki cəmiyyət zorakılığa gətirən narazılıqların və zəif nöqtələrin ayırd edilməsinə kömək edir və dövlət subyektlərinə zorakılığın qarşısını almaq və azaltmaq üçün uzun müddətli yanaşmalar qurmağa kömək edə bilər.

## Mülki cəmiyyət təhlükəni nə zaman daha da təhlükəli edə bilər?.

**Mülki cəmiyyət hər zaman demokratik və ya əhalinin maraq və tələblərinin təmsilçisi olmur və onun bu proseslərə daxil edilməsi avtomatik olaraq təhlükəsizlik sektoru üzərində effektiv nəzarətə aparmır.** Mülki cəmiyyət,onu təşkil edən adamlar kimi rəngarəngdir; bu o deməkdir ki,orada ictimaiyyətin marağı ilə bağlı çox sayda cürbəcür rəylər vardır və birinin müdafiə etdiyi fikirləri başqaları xoş olmayan və ya qəbuledilməz saya bilər.

Müxtəlif və ziddiyyətli fikirlər demokratiyanın bir hissəsidir,lakin,mülki cəmiyyət aktivliyi, əsas azadlıqlar və insan hüquqlarını məhdudlaşdırmağa çalışanda,qeyri-demokratik dəyərlərə və ya münaqişə və zorakılıq təbliğ edən təhlükəli vəziyyətə də gətirə bilər.

Mülki cəmiyyət təhlükəli vəziyyətə həm də bilməyərəkdən də kömək edə bilər. Bu o hallarda olur ki, mülki cəmiyyət:

- Yerli istedadlı adamları şirnikləşdirərək onları dövlət işindən ayırmağa sövq edir və yüksək maaşla və daha yaxşı iş şəraiti ilə beynəlxalq mülki cəmiyyət təşkilatlarına cəlb edir.
- Hökümət funksiyalarının güclənməsinə yox-,kadrların əvəz olunmasına çalışmaqla, hökümətlərin öz həll yollarını tapmalarına maneçilik törədir;
- Xidmətləri bölür və müxtəlif subyektlər arasındakı əməkdaşlığı daraldır;
- Əhalini bölür, xüsusi üzvlük təşviq etməklə cəmiyyət daxilində ayrı-ayrı bölünmələr yaradır;
- Dayanıqsız və /və ya özünə-xidmət layihələri təşviq edir;
- Heç kimə hesabat vermədən fəaliyyət göstərir.

Təhlükəsizlik üzərində ictimai nəzarət bəzən milli təhlükəsizlik maraqları naminə Dövlətin sirlilik tələbləri ilə ziddiyyətli ola bilir. Beynəlxalq hüquq,legitim milli təhlükəsizlik və ya ictimai asayiş səbəblərindən Dövlətin müəyyən fundamental hüquqlarının məhdudlaşdırılmasını qəbul edir. Məlumatların sinifləndirilməsi ilə bağlı aydın cədvəllər məlumat azadlığı ilə həssas məlumatların qorunması arasında balans yarada bilər.

## Mülki cəmiyyət hansı problemlərlə üzləşir?.

**Təşkilat qurma və söz azadlığı,** mülki cəmiyyətə əhali ilə xəbərləşməyə və siyasi dəstək qazanmağa imkan verir. Bu azadlıqlar əsas beynəlxalq insan hüquqları müqavilələrində və əksər ölkələrin konstitusiyasında əks edilir və mülki cəmiyyətin fəallığı onları aşılanmaqdan qoruyur. Hökümət,təhlükəsizlik sektorundan istifadə etməklə bu və ya başqa mülki və siyasi hüquqları məhdudlaşdırmağa çalışdığı yerlərdə mülki cəmiyyət bu cür siyasətə geniş müqavimət göstərən yeganə tərəf ola bilər.

Təsirli nəzarət aparmaq üçün mülki cəmiyyətin imkanlarının qarşısını alan bir sıra problemlər ola bilər:

- Təhlükəsizlik sektorunu əhatə edən s**irlilik ənənəsi**,onun siyasəti və fəaliyyəti haqqında ictimaiyyəti təlimatlandırmaq və məlumatlandırmaq cəhdlərini çətinləşdirir;
- **Milli təhlükəsizlik qayğılarının mülki azadlıqlar və insan hüquqları** üzərində **prioritetləşdirilməsi** o deməkdir ki,təhlükəsizlik sektorundan hesabatlılıq tələb edilməsi imkanları azalır;
- Mülki cəmiyyət öz funksiyalarını reallaşdırmaq üçün tələblərə cavab verməyən səviyyədə təsisati bacarıqlara malik ola bilər. Buraya,təhlükəsizlik sektoru üzrə təcrübənin olmaması və təsisatın təhlükəsizlik sektoru ilə bərabər səviyyədə münasibətlərə girməsi üçün öz bacarıqlarına inamın olmaması daxildir;
- Şəffaflığın olmaması və məhdud məlumat azadlığı qanunları, təhlükəsizlik səhəsində effektiv ictimai müdafiə aparmaq üçün lazım olan məlumatların əldə edilməsinə mane olur;
- **Müstəqilliyin olmaması,**çünki onlar ya təhlükəsizlik sektorunun elementləri tərəfindən və ya bu elementlərlə birgə çalışdıqlarından öz müstəqilliklərini qurban verirlər;
- **Təhlükəsizlik sektorunda şəffaflıq və demokratik hesabatlılıq üçün aşağı səviyyədə donor dəstəyinin olması,** təhlükəsizlik təsisatlarının effektivlik və məhsuldarlığına hesablanmış texniki yardımın olmaması, nəzarəti azaldır;
- **Bölünmüş mülki cəmiyyət** təhlükəsizlik sektoru nəzarəti üzrə əməkdaşlıq edə bilməyən və kollektiv şəkildə ictimai müdafiə qura bilməyən təşkilatlarla məşğul olur. Mülki cəmiyyət güclü qrupların hökmran olduğu cəmiyyət ola bilər və başqa təşkilatların izolə edilməsinə apara bilər;

- **Mülki cəmiyyət və təhlükəsizlik sektoru arasında inamın olmaması** və/və ya təhlükəsizlik siyasəti hazırlanmasında və onun həyata keçirilməsi variantlarında bu proqramlara təsir etmək üçün mülki cəmiyyətin əsas qərar- vermə sahiblərinə çıxışını çətinləşdirir.

## Əlavə oxu


*Təhlükəsizlik sektoru üzərində ictimai nəzarət üzrə*

- Auqistin Loada və Ornella Moderan

6-cı vəsait: Təhlükəsizlik sektoru islahatı və idarəçiliyinə mülki cəmiyyətin cəlb olunması

Qərbi Afrikada Təhlükəsizlik sektoru islahatı və idarəçiliyi üzrə vəsaiti,Ornella Moderan tərəfindən redaktə edilmişdir.

Genevrə,DCAF,2015

- Eden Koul, Kerstin Eppert və Katrin Kinzelbax (red.)

Təhlükəsizlik üzərində ictimai nəzarət : Mülki cəmiyyət üçün ktabça

Bratislava, BMT İnkişaf proqramı,2008.

*Mülki cəmiyyətin təhlükəsizlik sahəsində rolu haqqında*

- Marina Kaparini,Filip Fluri və  Ferens Molnar(red.)

Mülki cəmiyyət və Təhlükəsizlik sektoru: Yeni demokratik ölkələrdə konsepsiyalar və praktikalar

Berlin,LİT Verlag,2006

*Təhlükəsizlik üzərində ictimai nəzarətin rolu haqqında yazılar*

- Çandra Bhatta

Təhlükəsizlik sektoru islahatı və Nəzarət agentliklərinin rolu:Parlament, Mülki cəmiyyət,Media . Nepalda təhlükəsizliyin dəyişən dinamikası: Yazılar Toplusu. Racan Bhattaray və Rozi Keiv tərəfindən redaktə edilmişdir.

Katmandu. Nepal siyasi araşdırmalar İnstitutu.london. Saferworld 2009.

- Denis Qarsia

Hələ Demokratiya deyil: Braziliyada Təhlükəsizlik sektoru üzərində mülki nəzarət-keçid dövrü yaşayan digər ölkələrə dərslər.

Third world quarterly  35(3),2014

- Pol Cekson və Piter Albrekt

Syerra Leonede Təhlükəsizlik sektoru islahatı 2007-2017. Cəbhə xəttindən baxış

Genevrə,DCAF,2010

- Diana Qarsia və başqaları

Uzun yolun kənarında. Kolumbiyada kənd bölgələrində yaşayan qadınların təhlükəsizliyi üçün tövsiyələr. Boqota. Tədqiqat,Sosial və İqtisadi addımlar Korporasiyası; Genevrə,DCAF,2018.

*Mülki cəmiyyətin töhvələri haqqında*

- Con Kavetta və Qreqori Barret

O nə ilə fərqlidir? Mülki əməkdaşlığın nəticələrinin xəritələnməsi

İDS Working Paper 347. Brayton, İnkişaf araşdırmaları İnstitutu  2010

- Karen Barnes və Piter Albrekt

Vəsait9.Təhlükəsizlik sektoru üzərində mülki nəzarət və gendər

Gendər və TSİ Vəsaiti,Meqan Bastik və Kristen Valasek

Genevrə,DCAF, ATƏT/ODİHR  UN-İNSTRAÜ 2008.

**Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi (DCAF)** beynəlxalq fond olaraq müxtəlif ölkələrə təhlükəsizlik sektorunda yaxşı idarəçiliyi və islahatları təşviq edir.

Mərkəz təhlükəsizlik sektorunda demokrtaik idarəçiliyi təmin etmək üçün normalar və standardlar hazırlayır və təşviq edir, dərin siyasi araşdırmalar aparır, ən yaxşı praktikaları və tövsiyələri aydınlaşdırır ölkədaxili səviyyələrdə məsləhətlər verir və praktiki kömək proqramları irəli sürür.

**DCAF aşağıdakı şəxslərə təşəkkür etmək istəyir**

Ronca Harder və Casper Linkə tədqiqat, yazı və redaktəyə görə

Cenni Rouza İngiliscə redaktə etdiyinə görə

Svis Translate-ə Fransız dilində tərcümə və redaktə etdiyinə görə,və

Petra Qurtnerə dizayna görə

**Seriyaların redaktoru**

Fairli Çappuis

**Bu buraxılışa isnad etmək üçün**

DCAF-Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə Cenevrə Mərkəzi. Təhlükəsizlik Sektoru İslahatı, TSİ-ı Köməkçi materialları seriyaları. Cenevrə,DCAF,2015.

© DCAF. TSİ Köməkçi materiallarını bu saytdan əldə etmək olar www.dcaf.ch . İstifadəçilər DCAF-a isnad edərək bu materialların surətini çıxara bilər və yaya bilər. Kommersiya məqsədi üçün istifadə edilə bilməz